## *TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ*
## *ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ*
## *ISSUES OF EDUCATIONAL MANAGEMENT*

UOT 37.0

***Rəna Səməd qızı Əliyeva***
*Bakı şəhəri, Xətai rayonu 249 nömrəli məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏLİMİN KEYFİYYƏTİNİN İDARƏEDİLMƏSİ VƏ ÖLÇÜLMƏSİ

***Рена Самед гызы Алиева***
*заместитель директора по обучению и воспитанию школы №249 Хатаинского района города Баку*

# УПРАВЛЕНИЕ И ИЗМЕРЕНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Rana Samad Aliyeva***
*deputy director for training and upbringing of Khatai district school No. 249 of Baku city*

# MANAGING AND MEASURING THE QUALITY OF EDUCATION IN SECONDARY SCHOOLS

**Xülasə.** Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.

***Açar sözlər:*** *təhsil, keyfiyyət, idarəetmə, standart, müəllim, şagird, qiymətləndirmə, ölçmə, strategiya, nailiyyət, nəticə*

**Резюме**. Социальным требованием государства, общества и обучающихся к системе образования является качественное образование. Целью всех реформ в сфере образования является повышение его качества. В целом понятие качества в любой сфере означает соответствие определенным стандартам. Чем ближе к эталону параметры, характеризующие состояние объекта или системы, тем выше качество. То же самое и в образовании. Качество образования определяется отношением полученных результатов к заранее заданным критериям (нормативам). Основным показателем в определении качества образования являются результаты обучения ученика, а объективная оценка этих результатов является надежным источником качества.

***Ключевые слова:*** *образование, качество, управление, стандарт, учитель, ученик, оценивание, измерение, стратегия, достижение, результат*

**Summary.** The social demand of the state, society and students for the education system is quality education. The purpose of all reforms in the field of education is to improve its quality. In general, the concept of quality in any field means compliance with certain standards. The closer the parameters that characterize the state of an object or system are to the standard, the higher the quality. The same is true in

education. The quality of education is determined by the ratio of the results obtained to predetermined criteria (standards). The main indicator in determining the quality of education is the student's learning outcomes, and an objective assessment of these results is a reliable source of quality.

***Key words:*** *education, quality, management, standard, teacher, student, assessment, measurement, strategy, achievement, result*

Azərbaycan Respublikası vətəndaşlarının təhsil hüququ Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsi ilə təyin olunur. Bu maddəyə əsasən hər bir vətəndaşın fasiləsiz təhsil almaq hüququ vardır. Respublikanın hər bir vətəndaşının keyfiyyətli və fasiləsiz təhsil alması imkanının təmin edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün şəraitin yaradılması dövlətin təhsil siyasətinin prioritet sahələrindəndir. Təsadüfi deyil ki, respublika prezidentinin diqqət və qayğısı və Heydər Əliyev Fondunun dəstəyi sayəsində təhsil sahəsində köklü islahatlar aparılır, müxtəlif layihələr həyata keçirilir.

Keyfiyyətli təhsil, hər şeydən əvvəl, mənəviyyatı zəngin, yüksək mədəniyyətə malik bir şəxsiyyətin, insanda özünü realizəetmənin və özünü inkişafetdirmənin, özü-özünü tərbiyələndirmənin, nizamlamanın, insanlar arasında sülh və əmin-amanlıqla yaşama kimi bilik, bacarıq və vərdişlər formalaşdırır. Keyfiyyətli təhsil şagirdə təbiət və cəmiyyət haqqında müəyyən biliklər verməklə kifayətlənmir, həmçinin insanı cəmiyyət içərisində layiqli mövqe qurmağa, nəticədə isə yaxşı vətəndaş kimi formalaşmağa kömək edir.

Dahi ingilis yazıçısı Kiplinq (1865-1936) yazırdı: “Təhsil yer üzərində yaranmışların ən xeyirlisidir, əgər o yüksək keyfiyyətə malikdirsə. Əks təqdirdə təhsil tamamilə faydasızdır”.

Keyfiyyətli təhsilin məqsədi, onun strategiyası ilə sıx bağlıdır. Aydın ifadə edilmiş hədəflərin yoxluğu, nəticələrin cəmiyyətin yeni tələbləri ilə ayaqlaşmaması, ənənəvi strategiyalardan əl çəkə bilməmək təhsilin məhsuldarlığını aşağı salan səbəblərdəndir. Təhsilin ənənəvi strategiyaları inkişaf etmək istəyən insanın ümumi və xüsusi qabiliyyətlərini tormozlayan bir səbəbdir.

Keyfiyyətli təhsil Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməli, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamalı, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamalıdır.

Hazırda bu islahatların ən mühüm mərhələsinə qədəm qoyulmuşdur. Təhsilin məzmunu və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Bununla əlaqədar olaraq təhsilin və təlimin məzmununun müasir tələblərə uyğun olaraq müəyyən edilməsi, yeniləşdirilməsi və idarə olunması gündən-günə aktuallaşır.

Təhsilin məzmunu hər hansı bir təhsil müəssisəsində həyata keçirilən təlim prosesinin sonunda təlimalanın əldə etməli olduğu biliklərə, bacarıqlara, vərdişlərə və formalaşdırılması nəzərdə tutulan şəxsi keyfiyyətlərə qoyulan tələblərlə müəyyən edilən bir anlayışdır. Bu tələblər cəmiyyət tərəfindən müəyyən edilir və cəmiyyətin inkişaf səviyyəsindən asılı olur. Elmi-texniki tərəqqinin, ümummədəni səviyyənin, istehsalın və ümumiyyətlə, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təhsilin məqsədi və uyğun olaraq bu məqsədlərə çatmaq üçün təhsilin məzmununa qoyulan tələblər də dəyişir. Bu tələblər konkret olaraq müəyyən normativ sənədlər – standartlar şəklində ifadə olunur. Geniş mənada isə bu tələblər təhsil pilləsindən asılı olaraq ictimai həyata hazır olan, öz gələcək peşə fəaliyyətini müəyyən edə bilən, müəyyən dünyagörüşünə və ümumi mədəni səviyyəyə malik olan, peşə hazırlığı üzrə təhsilini davam etdirmək üçün lazımi bilik, bacarıq və vərdişlərlə silahlanmış məzun modeli formasında ifadə olunur.

Ümumiyyətlə, “təhsildə keyfiyyət nədir?” sualına cavab araşdırılarkən bir neçə tərifə rast gəlinmişdir:

- Keyfiyyət standartlara uyğunluqdur.

- Keyfiyyət şagirdin ehtiyaclarının qarşılanmasıdır.
- Keyfiyyət təhsilin məqsədlərinə uyğunluqdur.
- Keyfiyyət davamlı müvəffəqiyyətdir.
- Keyfiyyət inkişaf etdirilən bir təhsil proqramında (kurikulumda) eyiblər tapmaq deyil, onu eyibsiz tətbiq edə bilməkdir.
- Keyfiyyət ölçülə biləndir.
- Keyfiyyət istifadəyə yararlılıqdır.
- Keyfiyyət – qüsursuzluq axtarışına sistemli bir yanaşmadır. Qiymətləndirmə və monitorinq təhsilin keyfiyyətinə müsbət təsir edir.

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Təhsilin keyfiyyəti nədir? O necə müəyyən olunur? Təhsilin keyfiyyətini necə idarə etmək olar? Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.

Beləliklə, təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Eyni zamanda, keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənməyib onun yaxşılaşması və idarə olunması problemini də həll etmək olar. Azərbaycan Respublikasının ümumi təhsil sistemində belə bir qiymətləndirmə sistemi yaradılmaqdadır.

Müəllimin fəaliyyətlərinə həm də şagirdin bilik, bacarıq və vərdişlərini qiymətləndirmək, irəliləmə və geriləmələrinin səbəblərini axtarıb tapmaq da daxildir. Müəllim dərs dediyi sinfi çox yaxşı tanımalıdır. Öyrənmə-öyrətmə prosesinin mövzuya, sinfə və müəllimə uyğun olması, təhsilin sonunda öyrənmə səviyyələrinin ölçülməsi və bütün təhsil fəaliyyətlərinin çoxistiqamətli olaraq qiymətləndirilməsi lazımdır. Bütün bu işlərin aparılmasında ölçmə və qiymətləndirmə fəaliyyətləri əhəmiyyətli bir funksiyaya malikdir.

Təhsildə ölçmə və qiymətləndirmə fəaliyyətləri deyilincə, ağlımıza yalnız idrak sahəsi ilə əlaqədar şagird müvəffəqiyyətinin ölçülməsi gəlməməlidir. Ölçmə və qiymətləndirmə, bununla yanaşı duyğu (maraq, münasibət və motivasiya kimi) və psixomotor xüsusiyyətlərin ölçülməsi də gəlməlidir.

Ölçmə və qiymətləndirmə yalnız qiymət vermək məqsədi ilə müvəffəqiyyət testlərindən istifadə etmək deyil, eyni zamanda öyrənmədə irəliləmə və geriləməni təyin etməyi məqsəd qoyan viktorina, izləmə testləri kimi tədbirlərdən də istifadə etmək məqsədəuyğun olardı. Sinifdə izah olunan mövzu ilə əlaqədar olaraq anketlər, müsahibələr, müşahidələr, şagirdlərlə, digər müəllimlərlə və valideynlərlə edilən danışıqlar da ölçmə və qiymətləndirmə fəaliyyətləri olaraq təhsilə gətirilmişdir.

**Problemin aktuallığı.** Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür.

**Problemin elmi yeniliyi**. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülmüş müddəalar və alınmış nəticələr ümumi təhsil müəssisələrində şagirdlərin müstəqil işləmə fəaliyyətinin artırılmasına, təhsilin keyfiyyətinin idarə olunması yollarının müəyyənləşdirilməsnə müsbət təsir göstərəcəkdir.

**Ədəbiyyat:**

1. "Təhsil Haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
2. "Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası". -Bakı, -2009.
3. A. Süleymanova. Təhsilin əsasları. Bakı: Təhsil, -2014.
4. R. Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. -Bakı: Müəllim, 2010.
5. Загвязинский В.И., Гильманов А. Управление качеством образования: Методич. рекоменд. – Тюмень, -2009, 16 с.
6. Шарова С.М. Мониторинг как средство повышения качества образования. Санкт-Петербург, 2012.

**E-mail:** *nicat_rena85@mail.ru*

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **A.M. Bəkirova**
*ped.ü.fəls.dok.* **Ə.A. Gərayev**
**Redaksiyaya daxil olub:** 29.08.2022.